## **Test imtahan prosesi**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin müəssisə və təşkilatlarına yüksək hazırlıqlı kadrların seçilməsi, kadr ehtiyat bazasının formalaşdırılması, şirkətdaxili işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi, Təlim, Tədris mərkəzlərinə qəbul, həmçinin yay məktəbi üzrə müraciət edən vətəndaşların zəruri bilik səviyyəsi test üsulu ilə yoxlanılır.

Test imtahanları informasiya təhlükəsizliyinə riayət edilmək şərti ilə xüsusi proqram təminatı vasitəsilə elektron və ya kağız üzərində keçirilir.Test tapşırıqları mürəkkəblik səviyyələrinə görə sahə üzrə yüksək ixtisaslı mütəxəssislər tərəfindən hazırlanır və testologiya üzrə ekspertlər tərəfindən müsbət rəy verildikdən sonra Test Tapşırıqlarının Elektron Bazasına əlavə olunur və test imtahanlarında istifadə edilir.

Test imtahan prosesinə dəvət olunan vətəndaş imtahan zalına şəxsiyyəti təsdiq edən sənədi təqdim etdikdən sonra buraxılır. Vətəndaşın şəxsiyyəti təsdiq edən sənədi olmadıqda (şəxsiyyət vəsiqəsi, hərbi bilet, xarici pasport, sürücülük vəsiqəsi və etibarlılıq müddəti bitməyən işçi vəsiqəsi) və ya üzrsüz səbəbdən təyin olunan vaxtda gəlmədikdə o imtahana buraxılmır.

Test imtahanı başlamazdan əvvəl vətəndaşlar test tapşırıqlarının yerinə yetirilməsi şərtləri, hüquq və vəzifələri, imtahan zalında davranış, texniki təhlükəsizlik qaydaları haqqında (elektron və ya şifahi), eləcə də, imtahan prosesinin test otağında quraşdırılan kamera vasitəsi ilə çəkilişi barədə testi keçirən nəzarətçi tərəfindən məlumatlandırılırlar. Test imtahanı üçün müəyyən edilmiş vaxt bitdikdən sonra imtahan yekunlaşdırılır. Vakansiyalar üzrə elan edilmiş müsabiqələrin test imtahanı yekunlaşdıqdan dərhal sonra vətəndaşın topladığı ballar haqqında bildiriş vərəqəsi onun email ünvanına göndərilir. Test imtahan nəticələri bal sistemi üzrə qiymətləndirilir. Ballar hesablanarkən yalnız doğru seçilən cavablar nəzərə alınır. Hər bir sualın doğru cavabı 1 (bir) balla qiymətləndirilir.

## **Test imtahanlarının istiqamətləri**

- İşə qəbul prosesi üzrə
- Kadr ehtiyat bazasının formalaşdırılması üzrə
- “Yay məktəbinə” qəbul üzrə
- Təlim, Tədris Mərkəzlərinə qəbul üzrə
- Şirkətdaxili işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi üzrə

**Test tapşırığının strukturu**

- *İşə qəbul prosesi üzrə*
- *Kadr ehtiyat bazasının formalaşdırılması üzrə*

Qulluqçu kateqoriyasına aid olan vakansiyalar üzrə test tapşırıqları

- ✓ İxtisasa aid 20 sual
- ✓ Məntiqi təfəkkürün yoxlanılmasına aid 10 sual
- ✓ Azərbaycan və ARDNŞ-nin fəaliyyət sahəsinə aid 5 sual
- ✓ Komputer biliklərinə aid 5 sual

Fəhlə kateqoriyasına aid olan vakansiyalar üzrə test tapşırıqları

- ✓ İxtisasa aid 15 sual
- ✓ Azərbaycan və ARDNŞ-nin fəaliyyət sahəsinə aid 5 sual

- *"Yay məktəbinə" qəbul üzrə*
  - ✓ Məntiqi təfəkkürün yoxlanılmasına aid 50 sual

- *Təlim, Tədris Mərkəzlərinə qəbul üzrə ümumilikdə 70 sual*
  - ✓ Fənnlər üzrə
    - Riyaziyyat
    - Fizika
    - Kimya
    - Milli dövlətçilik və tarix
    - Məntiqi təfəkkürün yoxlanılmasına aid test tapşırıqları

- *Şirkətdaxili işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi üzrə ümumilikdə 100 sual*
  - ✓ İddia edilən sahəyə aid test tapşırıqları
  - ✓ Azərbaycan və ARDNŞ-nin fəaliyyət sahəsinə aid test tapşırıqları
  - ✓ Məntiqi təfəkkürün yoxlanılmasına aid test tapşırıqları
  - ✓ İnformasiya texnologiyalarına aid test tapşırıqları
  - ✓ Əməyin mühafizəsi və təhlükəsizlik texnikasına aid test tapşırıqları